# Liderin qətiyyəti, xalqın qeyrəti, ordunun qüdrəti



## *Bu birlik 2020-ci ildə Azərbaycana zəfər qazandırdı*

***Son gününü yaşadığımız 2020-ci il bütün dünyada olduğu kimi, Azərbycanda da bir sıra səbəblərdən ağır sınaqlar, ağrı-acılar dövrü oldu. Lakin ağır pandemiya ilində ən güclü ölkələr belə əvvəlki inkişaf mövqelərini itirsələr də, hansısa ciddi bir uğur qazanmasalar da, Azərbaycan nəinki inkişaf templərini əsasən qoruyub saxladı, sosial proqramları yeni ciddi əlavələrlə gerçəkləşdirdi, həm də bütün dünyada möcüzə kimi qəbul edilən bir tarixi Qarabağ zəfərinə imza atdı.***

Ali Baş Komandanın qətiyyəti, xalqın qeyrəti ilə ordunun qüdrəti möhtəşəm dəmir yumruğa çevrilib işğalçı Ermənistanın başına endirildi. Düşmənin ilin əvvəlindən davam edən hərbi təxribatlarına cavab olaraq keçirilən əks-həmlə əməliyyatı ilə başlayan Vətən müharibəsinin yekununda Qarabağ işğaldan azad edildi, 30 illik itkilər, məyusluq və nisgil epoxasına son qoyuldu. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən kompleks tədbirlər isə kütləvi ölüm saçan COVID –19 pandemiyasından maksimum az itki ilə çıxmağımıza təminat yaratdı.

İlin ilk aylarında Nazirlər Kabineti yanında operativ qərargahın yaradılması, ciddi karantin rejimlərinin tətbiq olunması kimi tədbirlər ölkəmizdə ilk günlərdən uğurla həyata keçirildi. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bu infeksiyaya yoluxan şəxslərin müalicəsi məqsədilə ölkəmizdə 45 xəstəxana ayrılıb və xəstələrin müalicəsi üçün istifadəyə verilib. Bu xəstəxanaların 36-sı Prezident İlham Əliyevin sərəncamı ilə son dövrlərdə tikilib. Qeyd edilən xəstəxanalar Bakıda və regionlarda fəaliyyət göstərir, onlar ən müasir avadanıqlarla təmin edilib. Bir çox ölkələrdə koronavirusla bağlı həm diaqnostika, həm də müalicə heç də dövlətin hesabına həyata keçirilmir. Azərbaycanda isə hər bir xəstə stasionar şəraitdə dövlət hesabına müalicə alır. Dövlətimiz, Prezidentimiz lazımi hər şeyi edir ki, koronavirusa qarşı uğurla mübarizə aparaq.

2020-ci il iyulun 12-də Ermənistan silahlı qüvvələrinin atəşkəs rejimini kobud şəkildə pozaraq artilleriya qurğularından istifadə etməklə Tovuz rayonu istiqamətində Azərbaycan Silahlı Qüvvələrinin mövqelərinə hücumu Azərbaycan Ordusunun həyata keçirdiyi əks-tədbirlər nəticəsində zərərsizləşdirildi, düşmən geri oturduldu, onun canlı qüvvəsinə və hərbi texnikasına ciddi və güclü zərbələr endirildi. Bununla işğalçı dövlətə və onun havadarlarına göstərildi ki, Azərbaycan güclü orduya malikdir və silahlı qüvvələrimiz Ali Baş Komandanın əmri ilə qarşısına qoyulan istənilən vəzifəni yerinə yetirməyə, o cümlədən, torpaqlarımızı işğaldan azad etməyə hazırdır və buna qadirdir.

İlin əvvəlindən Ermənistanda əhalinin hakimiyyətə etimadının itməsi bu məğlubiyyətlə daha da dərinləşdi. Ermənistanın təcrübəsiz, populist baş naziri Nikol Paşinyan ölkədə diktatura rejimini gücləndirməyə və təmas xəttində hərbi təxribatlar törətməklə xalqın diqqətini yayındırmağa çalışdı. Son illər Azərbaycanın beynəlxalq mövqelərinin daha da güclənməsi, ölkəmizin diplomatik uğurları, dövlət başçımızın irəli sürdüyü təşəbbüslərin beynəlxalq arenada əsaslı şəkildə dəstəklənməsi, o cümlədən, ölkəmizin sədrlik etdiyi Qoşulmama Hərəkatının Zirvə toplantısının geniş rezonans doğurması, Azərbaycanın təşəbbüsü ilə BMT Baş Assambleyasının xüsusi iclasının keçirilməsi barədə qərar qəbul edilməsi erməni lobbisini, xarici ermənipərəst dairələri, Azərbaycanı istəməyən xarici qüvvələri ciddi narahat edirdi.




Prezident İlham Əliyevin Soçidə "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında, Aşqabadda MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında, Münhen Təhlükəsizlik Konfransında Ermənistanın işğalçılıq siyasətini və faşist simasını ifşa etməsi, dünyanın aparıcı beynəlxalq qurumlarının Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədalətli qərarlar qəbul etməsi xarici ermənipərəst dairələri və Ermənistan hakimiyyətini ciddi problemlər qarşısında qoydu.

Ermənistanın sərhəddə və təmas xəttində törətdiyi təxribatlar bir daha göstərirdi ki, rəsmi İrəvan Ermənistan – Azərbaycan münaqişəsinin danışıqlar yolu ilə həllində maraqlı deyil və məqsədi Azərbaycan ərazilərini işğalda saxlamaqdır. Ermənistan uzun müddət idi ki, belə hərbi avantüralar yolu ilə üzv olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını (KTMT) Ermənistan–Azərbaycan münaqişəsinə cəlb etməyə, Azərbaycana qarşı törətdiyi işğal və təcavüzün məsuliyyətindən boyun qaçırmağa çalışırdı.

Azərbaycanın Ermənistan istisna olmaqla, bütün KTMT ölkələri ilə dostluq münasibətləri var və onlar işğalçı dövlətin məkrli niyyətini yaxşı başa düşürdülər. Qardaş Türkiyə Cümhuriyyəti isə Ermənistanın işğalçı təxribatını şiddətlə qınadı və hər zamankı kimi Azərbaycanın yanında yer aldığını bildirdi.

Dövlət başçısı İlham Əliyev Ermənistanın sülh danışıqlarını dalana dirəyərək, yeni irimiqyaslı hərbi təxribat törədəcəyini, Azərbaycanla hədə dili ilə danışdığını nəzərə alaraq BMT Baş Assambleyasının 75-ci sessiyası çərçivəsində qurumun 75 illiyinə həsr edilmiş Yüksək Səviyyəli İclasda və sessiyanın ümumi debatlarında çıxışlarında dünyanın ən yüksək tribunasından Ermənistanın işğalçılıq siyasətini kəskin ittiham etdi, onun ölkəmizi yeni müharibə ilə hədələdiyini açıqladı. Ölkəmizin rəhbəri hər iki çıxışında, ilk növbədə, xalqımız üçün ən önəmli problem olan Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində ölkəmizin qətiyyətli mövqeyini bir daha dünya ictimaiyyətinin diqqətinə çatdırdı.

Prezident İlham Əliyev 30 ildən artıq bir müddətdə əsassız olaraq davam edən bu münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunması üçün ölkəmizin həm siyasi-iqtisadi, həm də hərbi qüdrətinin olduqca böyük olduğunu bəyan etdi. Dövlətimizin başçısı Ermənistana, həm də onun havadarlarına mesaj verdi ki, Azərbaycan bundan sonra da qətiyyətli mövqeyindən geri çəkilməyəcək, beynəlxalq hüququn verdiyi bütün imkanlardan istifadə edərək dövlətimizi, xalqımızı qoruyacaq, ərazi bütövlüyümüzü təmin edəcək.

Cənab Prezident çıxışında BMT TŞ-nın işğalçı Ermənistanın ordu birləşmələrinin qeydsiz-şərtsiz işğal edilmiş ərazilərimizdən çıxarılmasını tələb edən 4 qətnamənin olmasına baxmayaraq işğalın hələ də davam etdiyini bildirdi. Azərbaycan rəhbəri dünya birliyini Ermənistanın işğalçılıq siyasətini dayandırmağa çağırdı, sessiyanın ümumi debatlarında çıxışında da beynəlxalq hüququn mövcud "ikili standartlar"i rədd etdiyini ucadan səsləndirdi.

Bütün bunlara baxmayaraq, bir neçə gündən sonra Paşinyan rejimi müharibə təhlükəsi yaratmaqla xalqın qəzəbindən yayınmağa çalışdı və gözlənildiyi kimi, müharibə yolunu seçdi. Sentyabrın 27-də səhər saatlarında Ermənistan silahlı qüvvələri Azərbaycana qarşı hücuma keçdi və yeni ərazilərimizi işğal etmək məqsədilə hərbi obyektləri və mülki əhalini hədəfə aldı. Ağır döyüşlər başladı, Azərbaycan ordusu düşmənə sarsıdıcı zərbələr vuraraq onu geri oturtdu və bütün cəbhəboyu əks-hücuma keçdi. Müdafiə Nazirliyinin ilkin məlumatında bildirildi ki, düşmən ordusu ciddi itki verərək geri çəkilir və bəzi kəndlərimiz nəzarətimiz altına keçib.

Həmin gün Prezident, Ali Baş Komandan İlham Əliyev Təhlükəsizlik Şurasının iclasında baş verənləri geniş müzakirə edərək Qarabağ torpaqlarının işğaldan azad edilməsi uğrunda Vətən müharibəsinin başlandığını bildirdi. Dövlət başçısı xalqa müraciətində hamını düşmənlə mübarizədə dəmir yumruq kimi birləşməyə, II Qarabağ savaşını qələbə ilə başa çatdırmağa çağırdı.

Azərbaycan xalqı isə müharibənin ilk günündən qəhrəman ordumuzla bir yerdə olduğunu nümayiş etdirdi, onun düşmənə qarşı mübarizəsini alqışladı və dəstəklədi. İgid əsgərlərimiz əmin oldular ki, hər bir Azərbaycan vətəndaşı, hər bir gənc onun yanındadır, onunla birdir. Bütün ölkə əhalisi, eləcə də xaricdə yaşayan soydaşlarımız azğın düşmənin başının əzilməsində Ali Baş Komandan və ordumuzun ətrafında daha sıx birləşdi, məsuliyyətli və tarixi dönəmdə Vətən naminə həmrəy oldular. Azərbaycan rəhbərliyi Ermənistan tərəfindən işğal edilmiş ərazilərin azad olunması yolunda qətiyyətli mövqe nümayiş etdirdi. Azərbaycanın öz ərazi bütövlüyünün bərpası istiqamətində atdığı addımlar prinsipial xarakter daşıyırdı və beynəlxalq hüquqa əsaslanırdı.

Prezident İlham Əliyev sonrakı günlərdə ardıcıl olaraq xarici mediaya çoxsaylı acıqlamalarında və xalqa müraciətlərində bəyan edirdi ki, Ermənistan rəhbərliyinin növbəti hərbi təxribatı onun sülhə və regionun təhlükəsizliyinə düşmən kəsildiyini bir daha əyani şəkildə sübuta yetirir. İşğal etdiyi Azərbaycan torpaqlarını azad etmək haqqında BMT Təhlükəsizlik Şurasının, müxtəlif beynəlxalq təşkilatların çoxsaylı qətnamələrinə və çağırışlarına məhəl qoymayan Ermənistan nəinki Cənubi Qafqazda, eləcə də bütün dünyada sülhə və təhlükəsizliyə ən böyük təhlükəyə çevrilib. Münaqişəni sülh yolu ilə həll etməli olan ATƏT-in Minsk qrupunun çoxillik fəaliyyəti tamamilə səmərəsiz olub və artıq bu qurum iflasa uğrayıb.

Azərbaycan rəhbəri dönə-dönə vurğuladı ki, düşmənin yeni ərazilər işğal etmək məqsədilə bais olduğu müharbədə ölkəmiz beynəlxalq hüquqa əsasən öz torpaqlarını işğaldan azad etmək zərurəti ilə üşləşib və BMT TŞ-nin qətnamələrini icra edir. Qərb dövlətləri qəbul etmək istəməsələr də, Türkiyənin bölgədə artan rolunu inkar etmək mümkün deyil. Dağlıq Qarabağ münaqişəsinin həlli prosesində Türkiyənin fəal iştirakı reallıqdır. Digər tərəfdən, bir çox ölkələrdən fərqli olaraq, Türkiyə bu məsələdə ədalətin tərəfində oldu. Ədalətli tərəf isə Azərbaycandır. Türkiyə Qarabağ mövzusunda daim Azərbaycanın yanındadır.

Günlər ötdükcə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə hazırlanmış və məharətlə aparılmış hərbi əməliyyatlar və son dərəcə yüksək dəqiqliklə, vaxtında edilən siyasi-diplomatik gedişlər hadisələrin gedişini yeni gerçəklik məcrasına yönəltdi. Şanlı Azərbaycan Ordusu Cəbrayılı, Füzulini, Zəngilanı, Qubadlını, Murovdağı, Suqovuşanı, Hadrutu, Xocavənd rayonunun böyük bir hissəsini və Şuşanı hərbi yolla azad etməklə döyüş meydanında düşmənin belini qırdı. Şuşanın azad olunmasından bir gün sonra isə 80-dək kəndin ildırım sürəti ilə azad edilməsi müharibənin 44-cü günündə düşməni diz çökdürdü və Ermənistan kapitulyasiya aktını imzalamalı oldu. Azərbaycan, Ermənistan və Rusiya rəhbərləri arasında imzlanmış birgə bəyanata əsasən, Ermənistan Kəlbəcər, Laçın və Ağdam rayonlarını döyüşsüz təhvil verəcəyinə və qoşunlarını Azərbaycan ərazisindən çıxaracağına dair öhdəlik götürməyə məcbur oldu.

Nəhayət, Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan ərazilərinin 30 illik işğalına son qoyuldu. Azərbaycan Ordusunun şücaəti, Silahlı Qüvvələrin müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin sərkərdəlik məharəti ilə 30 ildən bəri düşmən tapdağında qalan torpaqlarımızın qısa müddətdə, minimum itki ilə düşmən işğalından azad edilməsi xalqımızda böyük sevinc və qürur hissi yaşatdı. Xalqımızın Qarabağ uğrunda Vətən müharibəsi tarixi zəfərlə yekunlaşdı, düşmən diz çökdü və müstəqil Azərbaycan dövlətinin pozulmuş ərazi bütövlüyü bərpa edildi.

Dekabrın 10-da keçirilən Zəfər paradı qələbə sevincimizin zirvə təntənəsinə çevrildi, çağdaş tariximizə qızıl hərflərlə yazıldı. Müzəffər ordumuz Azadlıq meydanında qürurla addımladı. Azərbaycan əsgəri böyük ruh yüksəkliyi ilə bu paradda keçid etdi. Silahli qüvvələrimizin texniki-döyüş səviyyəsi dünyaya göstərildi. Xalqımız son 30 ilin ağrı-acılarına bir daha vida dedi.

30 ildə dünyanın aparıcı dövlətlərinin, nüfuzlu beynəlxalq təşkilatların edə bilmədiklərini Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu 44 gündə gerçəkləşdirdi. Bu təntənəli hərbi nümayişin Zəfər paradı olması ilə yanaşı, başqa bir önəmli tərəfi isə qardaş Türkiyə Cumhuriyyətinin Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə yüksək çinli məmurların və türk ordu heyətinin bir qrupunun paytaxtımızın baş meydanında bizimlə bir yerdə olması idi.

Sevindirici haldır ki, tarixən bu iki dövlət arasındakı münasibətlərə heç bir qüvvə mane ola bilmədi, əksinə, öndərlərimiz Heydər Əliyevin "Bir millət – iki dövlət" və Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci – sevincimiz, kədəri – kədərimizdir" tarixi hökmlərinin həqiqətdən qaynaqlandığını dünyaya nümayiş etdirdi. Azərbaycan və Türkiyə arasında əlaqələrin belə ali səviyyədə inkişafı təkcə bu dövlətlərin yox, həm də regionun ümumi tərəqqisinə, sabitliyin bərqərar olmasına mühüm töhfələr verir.

Bu gün Türk dünyasının daha sıx şəkildə bir araya gəlməsini şərtləndirən ən mühüm amillərdən biri də Azərbaycan və Türkiyənin münasibətlərinin daim yüksələn xətlə inkişafından keçir. Prezident İlham Əliyev bununla bağlı bildirdiyi kimi: "Türkiyə–Azərbaycan əlaqələri, eyni zamanda, bütün Türk dünyası üçün də mühüm rol oynayır. Biz Türk dünyasının birləşməsi, türkdilli dövlətlər arasında əlaqələrin inkişafı üçün birgə səylər göstəririk".

Bu gün dünyada Azərbaycan və Türkiyə qədər bir-birinə bağlı olan, bir-birinə bu qədər yaxın münasibətlərdə olan ölkələrə rast gəlmək mümkün deyil. Tarixin çətin sınaqları ilə üz-üzə qaldıqda, ən çətin anlarında belə bu iki ölkə arasındakı qardaşlıq sözdə deyil, əməldə özünü göstərir. Bu mənada Azərbaycan – Türkiyə münasibətləri bütün dünya üçün əsl örnəkdir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin müzəffər Ali Baş Komandanı İlham Əliyev bu tarixi qələbə sevincini, bu misilsiz zəfər öyüncünü möhtəşəm bir təntənə ilə Azərbaycan xalqına yaşatdı.

Azərbaycan öz torpaqlarının işğaldan azad edilməsi üçün apardığı bu Vətən müharibəsində qazandığı tarixi qələbəsi ilə, əslində, bütün Qafqazı erməni faşizmindən xilas etdi. Eyni zamanda, bu qələbə erməni faşizminin bütün bəşəriyyət üçün nə dərəcədə təhlükəli bir bəla olduğunu bütün dünyaya göstərdi. Ümumiyyətlə, Azərbaycanın bu tarixi qələbəsinin istər ölkədaxili, istər regional, istərsə də ümumbəşəri əhəmiyyəti hələ uzun illər öyrəniləcək və qiymətləndiriləcək.

Bundan sonra bizi işğaldan azad edilmiş torpaqlarımızda möhtəşəm quruculuq işləri gözləyir. Dövlətimizin başçısının dediyi kimi, biz bütün şəhər və kəndlərimizi bərpa edəcəyik, yenidən quracağıq. Qarabağın işğaldan azad edilmiş bütün bölgələrinə həyat qayıdacaqdır!

Sonda bütün çətinlik və itkilərə baxmayaraq 2020-ci ili Qələbə sevinci ilə başa vuran xalqımızı, bu zəfərə bizdən az sevinməyən xaricdə yaşayan soydaşlarımızı 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni ilin gəlişi münaibətilə səmimi təbrik edir, ölkəmizə möhkəm sülh, sabitlik və tərəqqi arzu edirəm!

***Əhliman ƏMİRASLANOV,***
***Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik***